

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 154 (21.306)

*8 avqust 2015-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti Oleqario Vaskes Ranyanı və baş katibi Frans Şrayberi qəbul edib.

Oleqario Vaskes Ranya birinci Avropa Oyunlarının açılış mərasimində iştirakını məmnunluqla xatırlayaraq həmin oyunların yüksək səviyyədə təşkilinin və ümumilikdə ölkəmizdə gedən inkişaf proseslərinin, insanların göstərdiyi dost münasibətlərinin onda dərin təəssürat yaratdığını deyib. Beynəlxalq İdman Atıcılıq Federasiyasının prezidenti dünyanın 90 ölkəsindən 1000-dən çox idmançının iştirak etdiyi atıcılıq üzrə Dünya Kuboku yarışlarının da Qəbələdə ən müasir standartlar səviyyəsində təşkil olunduğunu və bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini vurğulayıb.

Dövlətimizin başçısı müxtəlif beynəlxalq tədbirlərin, o cümlədən dünya səviyyəli idman yarışlarının keçirilməsi üçün təkcə ölkəmizin paytaxtında deyil, regionlarda da müasir infrastrukturun yaradıldığını vurğulayıb və bu baxımdan atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının Qəbələ şəhərində keçirilməsinin önəmini qeyd edib.

Görüşdə Beynəlxalq İdman Atıcılıq Federasiyası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın uğurlu inkişafından məmnunluq ifadə olunub.



## Kəngərli rayonunun Qıvraq qəsəbəsində yeni Ticarət-İaşə və Bazar Kompleksi istifadəyə verilmişdir

"Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" Kəngərli rayonunda da uğurla icra olunur. Dövlət Proqramına uyğun olaraq, ötən dövrdə rayonda kompleks quruculuq tədbirləri həyata keçirilmişdir. İstifadəyə verilən müasir sosial obyektlər əhaliyə göstərilən xidmətlərin səviyyəsini yüksəltməklə yanaşı, rayonun mərkəzi olan Qıvraq qəsəbəsini də müasir yaşayış məntəqəsinə çevirmişdir.



Avqustun 7-də Qıvraq qəsəbəsində Ticarət-İaşə və Bazar Kompleksi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyev açılış tədbirində iştirak etmişlər.

Tədbirdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov çıxış edərək demişdir ki, muxtar respublikada həyata keçirilən abadlıq-quruculuq işləri Kəngərli rayonunu da əhatə etmişdir. Yaşayış məntəqələrində müasir şərait yaradılmışdır. Təkcə 2015-ci ilin ötən dövründə Kəngərli Rayon Təhsil Şöbəsi, Uşaq-gənclər şahmat məktəbi və Elektrik şəbəkəsi üçün yeni binalar istifadəyə verilmişdir. Hazırda Yurdçu kəndində yeni sosial obyektlərin inşası davam etdirilir, kənd yolu abadlaşdırılır. Ramiz Cəfərov yaradılan şəraitə görə rayon sakinləri adından minnətdarlıq etmişdir.





Qıvraq qəsəbə sakini Əli Vəliyev demişdir ki, bu gün Kəngərli rayonunda əhalinin rifahının yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür. Qəsəbə və kəndlər müasir görkəm alır, yollar abadlaşdırılır. Bir neçə xidmət sahəsini özündə birləşdirən bu kompleksin istifadəyə verilməsi də təkcə Qıvraq qəsəbə sakinlərinin deyil, bütövlükdə rayon əhalisinin rahatlığına xidmət edəcəkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Qıvraq qəsəbəsində Ticarət-İaşə və Bazar Kompleksinin istifadəyə verilməsi münasibəti ilə sakinləri təbrik etmiş, təşkilatçılara və əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Azərbaycan Respublikası Prezidentinin 2004-cü ilin mart ayında imzaladığı müvafiq qanunla Kəngərli rayonu yaradılmışdır. Ötən 11 il ərzində rayon böyük inkişaf yolu keçmiş, lazımı infrastrukturlar yaradılmış, kəndlər abadlaşdırılmışdır. Bu işlər bu gün də davam etdirilir. Rayonun inkişafı əhalinin sayının artmasına da səbəb olmuşdur. Yeni yaradılarkən 25 min əhalisi olan Kəngərli rayonunda bu gün 31 mindən artıq əhali yaşayır.

Ali Məclisin Sədri demişdir: Bu gün rayonun mərkəzi Qıvraq qəsəbəsində 6 minə yaxın əhali yaşayır. Bundan başqa burada böyük hərbi hissə yerləşir. Qəsəbədə yaşayanlara, hərbi hissədə xidmət edənlərə və ailələrinə ictimai iaşə, bazar və ticarət xidmətlərinin göstərilməsi vacib məsələ idi. Ona görə də ərazidə yeni kompleksin tikilməsi zərurəti yaranmışdı. İş adamları bu işin həyata keçirilməsinə təşəbbüs göstərdilər. Təkliflərə baxıldıqdan sonra layihə hazırlandı və kompleksin tikintisi həyata keçirildi. Qıvraq qəsəbəsində Ticarət-İaşə və Bazar Kompleksinin istifadəyə verilməsi dövlətin öz vətəndaşlarına göstərdiyi qayğının və ölkəmizdə sahibkarlığın inkişafı üçün yaradılan şəraitin nəticəsidir. Hazırda Kəngərli rayonunda 12 hüquqi, 391 fiziki şəxs sahibkarlıq fəaliyyəti ilə məşğul olur. Kompleksin istifadəyə verilməsi ilə sahibkarlıq obyektlərinin sırasına biri də əlavə olundu.




Ali Məclisin Sədri demişdir: Ölkəmizdə yeni iş yerlərinin açılması, əhalinin istehsal etdiyi məhsulların satışı üçün şəraitin yaradılması, daxili tələbatın yerli istehsal hesabına ödənilməsi əsas vəzifələrdəndir. Bu gün istifadəyə verilən kompleksdə sakinlərin ehtiyacları ödənilməklə yanaşı, 100-ə yaxın yeni iş yeri də açılmışdır. Binada yerləşən şadlıq sarayı sakinlərə toy mərasimlərini keçirməyə imkan verəcəkdir. Eyni zamanda burada hər həftənin şənbə və bazar günləri satış yarmarkalarının keçirilməsi üçün də lazımı şərait vardır. Artıq rayonun kəndlərində yaşayan torpaq mülkiyyətçiləri və fermerlər istehsal etdikləri məhsulların kompleksdəki bazarda rahat şəkildə satışını həyata keçirəcəklər.

*Ardı 2-ci səhifədə*

Ona görə də sahibkarlar və burada fəaliyyət göstərəcək insanlar yaradılan şəraitdən düzgün istifadə etməli, tikililər qorunmalı, təmizliyə əməl olunmalı, sakinlərə nümunəvi xidmət göstərilməlidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına və kompleksin uzun müddət rayon əhalisinə xidmət edəcəyinə əminliyini bildirmiş, bir daha təşkilatçılara təşəkkür etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Azərbaycan Respublikası Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Mehbalıyev açılışı bildirən lenti kəsmişlər.

Məlumat verilmişdir ki, kompleksin tərkibinə ticarət mərkəzi, mağazalar, şadlıq sarayı və digər xidmət sahələri daxildir. Bina 3 mərtəbədən ibarətdir. Birinci mərtəbədə kənd təsərrüfatı məhsullarının satışı üçün qapalı bazar, 2 ət satışı mağazası və anbar, ikinci mərtəbədə 7 müxtəliftəyinatlı mağaza və iş otaqları, üçüncü mərtəbədə isə şadlıq sarayı yerləşir. Həyətdə 24 yerlik açıq bazar, 12 müxtəliftəyinatlı mağaza, aptek, yeməkxana və kafe fəaliyyət göstərəcəkdir. Qapalı bazarda 30 piştaxta hazırlanmış və onların hər biri elektron tərəzi ilə təmin olunmuşdur.

Müasir dizayn əsasında inşa olunan 270 yerlik şadlıq sarayı toy mərasimləri və digər tədbirlərin keçirilməsi üçün münasib quruluşa malikdir. Ən müasir işıqlandırma, görüntü və səs sistemləri quraşdırılan şadlıq sarayında rayon əhalisinə nümunəvi iaşə xidməti göstəriləcəkdir. Kompleksdəki yeməkxana və kafe də müasir xidmət infrastrukturuna malikdir.

Bina müasir havalandırma, istilik, su və kamera-nəzarət sistemləri ilə təchiz olunmuş, həyətdə geniş abadlıq işləri görülmüş, 2 avtomobil dayanacağı istifadəyə verilmişdir.

## Xanlıqlar-Püsyan-Qıvraq avtomobil yolunda yenidənqurma işləri davam etdirilir

Muxtar respublikada kəndlərarası yollar müasir standartlara uyğun qurulur. Şərur və Kəngərli rayonlarının bir neçə yaşayış məntəqəsini birləşdirən Xanlıqlar-Püsyan-Qıvraq avtomobil yolunun yenidən qurulması da bu istiqamətdə görülən işlərin davamıdır.

Avqustun 7-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda aparılan tikinti işləri ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, avtomobil yolunun ümumi uzunluğu 16 kilometrdir. Yol yatağı 9 metrədək genişləndirilərək birinci qat asfalt örtük verilmişdir. Yolboyu 84 su keçidi, 7 selötürücü, eləcə də yolun Qıvraq qəsəbəsindən keçən hissəsində 488 metr uzunluğunda beton kanal tikilmişdir. Yol istifadəyə verildikdən sonra Naxçıvan-Sədərək magistral yoluna çıxmadan avtomobillərin kəndlərarası rahat və təhlükəsiz hərəkəti təmin ediləcəkdir.

Ali Məclisin Sədri tikinti işlərinin davam etdirilməsi və yolun ətrafında yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Dövlət proqramından irəli gələn vəzifələr icra edilir, əhalinin məşğulluğu artır

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərin davamlı xarakter aldığını sübut edən mühüm dövlət sənədidir. Proqramın qəbul olunmasında başlıca məqsəd muxtar respublikada əhalinin məşğulluğunun təmin edilməsinə, əmək bazarının dəyişən tələblərinə uyğun müasir peşə hazırlığı kurslarının təşkilinə köməklik göstərməkdən ibarətdir.***

Proqramdan irəli gələn vəzifələrin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin də üzərinə mühüm vəzifələr düşür. Bununla əlaqədar xidmətlə əlaqə saxladıq. Öyrəndik ki, məşğulluq xidməti orqanları Vergilər Nazirliyindən alınmış siyahıya əsasən, muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlardan boş iş yerləri haqqında məlumatların toplanmasını təmin edərək işaxtaran vətəndaşların peşə və ixtisaslarına uyğun olaraq həmin iş yerlərinə göndərilməsini həyata keçirir. Görülən işlərin nəticəsidir ki, 1 yanvar 2014-cü il tarixdən 1 avqust 2015-ci il tarixədək məşğulluq xidməti tərəfindən 4385 işaxtaran öz peşə və ixtisaslarına uyğun münasib işlə təmin olunub.

Əhalinin məşğulluğunun təmin edilməsində aktiv məşğulluq tədbiri olan əmək yarmarkalarının xüsusi yeri var. Ona görə də rübdə bir dəfə Naxçıvan şəhərində və muxtar respublikanın bütün rayon mərkəzlərində əmək yarmarkaları keçirilir. Bəhs olunan dövrdə də qrafik üzrə yarmarkaların keçirilməsi diqqətdə saxlanılıb, bu yarmarkalarda 1275 işaxtaran münasib işlərlə təmin edilib. Son illər müxtəlif nazirliklərdə də əmək yarmarkalarının keçirilməsinə başlanılıb. Adıçəkilən müddətdə təhsil sahəsi üzrə keçirilən əmək yarmarkasında 93, səhiyyə sahəsi üzrə keçirilən əmək yarmarkasında isə 11 nəfər öz peşə və ixtisaslarına uyğun münasib işlə təmin olunublar.

Qeyri-məşğul əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə haqqıödənilən ictimai işlərin təşkilinə də ciddi önəm verilib. Bu dövrdə 480 nəfər haqqıödənilən ictimai işlərə cəlb edilib.

Həyata keçirilən tədbirlər sırasında milli xalq tətbiqi sənətinin təbliği məqsədilə evlərdə xalça toxunuşu ənənəsini davam etdirmək üçün "Ənənəni qoruyaq, evdə xalça toxuyaq" devizi altında sosial qayğıya ehtiyacı olanların haqqıödənilən ictimai işlərə cəlb edilməsi də var. Bu məqsədlə 23 şəxslə müqavilə bağlanılıb. Hazırda bu istiqamətdə işlər davam etdirilir. Sağlamlıq imkanları məhdud qadınlar da diqqətdə saxlanılıb, 24 nəfər sağlamlıq imkanları məhdud qadın müəyyənləşdirilərək yun corab toxunuşu həyata keçirilib.

Tətil günlərində işləmək istəyən gənclərin mövsümi və haqqıödənilən ictimai işlərə göndərilməsi məqsədilə müxtəlif ali məktəblərin 35 tələbəsi müvəqqəti xarakterli işlərə göndərilib.

Əmək bazarında dəyişikliklərin baş verməsi ixtisasartırma, yeni peşələrə yiyələnmək kimi proseslərin aktuallığını artırır. Bunun üçün əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması, onun rəqabət gücünün artırılması və iqtisadi fəallığının yüksəldilməsi, milli xalq tətbiqi sənətinin yaşadılması məqsədilə əmək bazarında peşələrə olan tələbat müəyyənləşdirilərək həmin tələbata uyğun müasir peşə kurslarının açılması təmin edilir. Dövlət Məşğulluq Xidməti bu müddət ərzində rübdə bir dəfə olmaqla müəssisələrdə sorğu keçirib və Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşələr üzrə hazırlıq kursları təşkil edilib və bu kurslara 662 nəfər cəlb olunub.

Sosial müdafiəyə xüsusi ehtiyacı olanların, sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədilə 1 yanvar 2014-cü il tarixdən 1 avqust 2015-ci il tarixədək sağlamlıq imkanları məhdud 124 nəfər peşə kurslarına cəlb edilib. Əlavə olaraq, Penitensiar Xidmətin Cəzaçəkmə müəssisəsində kompüter, misgərlik və ağac üzərində oyma sənətləri üzrə kurslar təşkil olunub. Kvota yerlərində sosial müdafiəyə xüsusi ehtiyacı olan 152 nəfərin işlə təmin olunmasına köməklik göstərilib.

Həyata keçirilən tədbirlər nəticəsində 2015-ci ilin may-iyul aylarında kəndlərdəki xidmət mərkəzlərində fəaliyyət göstərən bərbər, gözəllik salonu və dərzi sexlərində olan vakant yerlərdə 22 bərbər, 13 qadın bərbəri və 5 dərzi işlə təmin olunub.

Bu dövrdə peşə hazırlığı, haqqıödənilən ictimai işlər, vakansiyalar və işəgötürənlərin işçi qüvvəsinə olan tələbləri barədə məlumatlar bu məqsədlə yaradılmış ***(isaxtar.nmr.az)*** internet saytında yerləşdirilib.

**✍ Səbuhi HƏSƏNOV**

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Qanunsuz sahibkarlığın aşkar edilməsi şöbəsinin rəisi, vergi xidməti müşaviri Rəşad Əliyevdən aldığımız məlumata görə, senziya) olmadan məşğul olmaları, 8 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib.

## İlin ilk 7 ayı ərzində operativ vergi nəzarəti necə təşkil olunub

2015-ci ilin 7 ayı ərzində nazirlik tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması diqqətdə saxlanılıb. Bu dövrdə nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərən ödəyicilərin aşkar edilməsi, xarici valyuta sərvətlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi, işəgötürənlə işçilər arasında əmək müqavilələrinin bağlanmasına nəzarət və sair kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 92 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.

Həyata keçirilən operativ nəzarət tədbirləri gücləndirilib, 20 vergi ödəyicisi tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 26 vergi ödəyicisi tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Rəşad Əliyev onu da bildirdi ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergi ödəyicisində 1 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edilməsi, 13 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 17 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə razılıq (li-

"Əlavə olaraq keçirilən nəzarət tədbirləri zamanı 7 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmin şəxslərin fəaliyyəti qanunsuz olaraq şəxsi nəqliyyat vasitəsindən istifadə etməklə sərnişindaşıma xidməti göstərməsi olub", – deyən Rəşad Əliyev onu da vurğuladı ki, aparılan operativ nəzarət işləri zamanı tərtib edilmiş 11070 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin bugünkü tarixə tamamilə büdcəyə ödənilməsi təmin edilib.

2015-ci ilin qeyd olunan dövrlərində vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 10 vergi ödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidə zamanı müşahidəyədək olan dövriyyələrlə müqayisədə 30078,1 manat dövriyyə artımına nail olunub. Bu da bir vergi ödəyicisinə bir obyekt üzrə orta hesabla ay ərzində 60,2 manata yaxın vergi məbləğinin əlavə olaraq büdcəyə ödənilməsi deməkdir.

Qeyd olunan dövr ərzində Vergilər Nazirliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanları ilə birgə tədbirlər planına əsasən, işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin yerinə yetirilməsinə cəlb edilməsinin Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlamaqla rəsmiləşdirilməsi, əmək haqlarının real göstərilməsi ilə bağlı tikinti, ticarət, iaşə və digər xidmət obyektlərində araşdırılması mütəmadi olaraq davam etdirilib.

**Xəbərlər şöbəsi**

## Dəmir yolu nəqliyyatı üzrə ixtisaslı kadrlar hazırlanır

***Nəqliyyat istənilən istehsal proseslərinin zəruri şərtidir və elə bu baxımdan da onu iqtisadiyyatın arteriyası adlandırırlar. Dəmir yolu nəqliyyatı isə digər nəqliyyat növlərindən müxtəlif üstünlükləri ilə fərqlənir. Çünki dəmir yolu nəqliyyatında ümumi xərclər və həcmlər digər nəqliyyat sahələri ilə müqayisədə daha sərfəlidir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2011-ci il 16 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyatı sisteminin 2011-2015-ci illər üzrə inkişaf Proqramı" da bu sahənin hərtərəfli inkişafına təkan verməklə, həm də bu sahə üzrə ixtisaslı kadrların hazırlanmasını tələb edir. Hamımıza məlumdur ki, dəmir yolu nəqliyyatında görülən işlərin keyfiyyətlə yerinə yetirilməsi, hərəkət vasitələrinin, texniki avadanlıq və qurğuların idarə edilməsi, daşınan sərnişinlərin və yüklərin mənzil başına təhlükəsiz və itkisiz çatdırılması üçün bu sistemdə çalışanların yüksək texniki biliyə malik olmalarının mühüm əhəmiyyəti vardır. Dəmir yolu nəqliyyatı sisteminin daha da inkişaf etdirilməsi, əhalinin və iqtisadiyyatın dəmir yolu nəqliyyatı xidmətlərinə olan tələbatlarının ödənilməsi, daşımaların təhlükəsizliyi, onun infrastrukturunun yeniləşdirilməsi, dəmir yolu sahəsi üçün kadrların hazırlanmasını təmin etmək baxımından yuxarıda adıçəkilən proqram mühüm əhəmiyyət kəsb edir. Məhz bu məqsədlə Naxçıvan Dövlət Texniki Kollecində 2013-2014-cü tədris ilində Nəqliyyatda daşımaların təşkili ixtisasına ilk qəbul aparılmışdır. Hazırda həmin ixtisasda təhsil alan III kurs tələbələrinin sayı 23 nəfərdir. II kursda isə 19 nəfər təhsil alır. 2015-2016-cı tədris ili üçün bu ixtisasa 23 nəfərin qəbul olunması nəzərdə tutulmuşdur. Kollecə həmin ixtisas üzrə qəbul ümumorta təhsil bazasından aparılır və tədris müddəti dörd ildir. Təhsilin sonunda məzunlara subbakalavr ixtisas dərəcəsi verilir. Kollecdə tələbələrin həmin ixtisasa yiyələnmələri üçün hərtərəfli şərait yaradılmışdır. Dərslərin əyaniliyini təşkil etmək məqsədilə Nəqliyyatda daşımaların təşkili fənn kabinəsi yaradılmışdır. Kabinəni zənginləşdirmək üçün buraya stendlər, fotoşəkillər və bir sıra avadanlıqlar gətirilmişdir. Tədrisi müasir təlim metodları ilə aparmaq üçün kollecə bu sahə üzrə ixtisaslı kadr cəlb edilmişdir. Qeyd etmək yerinə düşər ki, Naxçıvan Dövlət Universitetində Dəmir yolu nəqliyyatı və təsərrüfatı mühəndisliyi ixtisası üzrə kadr hazırlığına 2012-2013-cü tədris ilindən başlanmışdır. Buna görə də Naxçıvan Dövlət Texniki Kollecində hazırlanan kadrların bilik səviyyəsinin daha da yüksək olması üçün muxtar respublikanın bu ali təhsil ocağı ilə sıx əlaqələr saxlanılır, birgə açıq dərslər keçirilir. Tələbələr əyani dərsləri kollecin maddi-texniki bazası əsasında öyrənməyə çalışırlar. Digər praktik məşğələlər isə Naxçıvan dəmiryol stansiyasında və Culfa dəmiryol qovşağındakı struktur sahələrdə aparılır. İxtisasın tədris planına uyğun olaraq, sonuncu kursun səkkizinci semestrində tədris, texnoloji və diplomqabağı təcrübələrin "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətində keçirilməsi nəzərdə tutulmuşdur. Son üç ay yarımlıq tədris yalnız alınan nəzəri biliklərin təcrübədə əsaslandırılmasına hesablanmışdır. Müəllimlər tələbələrə oxuduqları ixtisasın sirlərini öyrətməklə yanaşı, həm də onlara həmin ixtisası sevdirməyi qarşıya məqsəd qoyublar. Bunun üçün müxtəlif metodlardan istifadə edilməsi tələbələrdə ixtisasa hörmət, onların davranışlarında məsuliyyət hissi yaradır.

Hazırda kollecin III kursunda təhsil alan 23 nəfər tələbənin 2017-ci ildə müvafiq ixtisas üzrə ilk buraxılışı olacaq. Bu isə üzərimizə daha böyük məsuliyyət hissi qoyur. Çalışacağıq ki, bizə göstərilən etimadı doğruldaq, muxtar respublikamızda dəmir yolu nəqliyyatı üzrə ixtisaslı kadrların yetişdirilməsinə öz töhfəmizi verək.

**Asəf RUŞANOV**
***Naxçıvan Dövlət Texniki Kollecinin tədris işləri üzrə direktor müavini***

*Gözəllik aşiqi olan xalqımızın milli dəyərləri içərisində toy mərasimləri xüsusi yer tutur. Hətta başqa xalqlar toy adətlərimizi etalon kimi qəbul edirlər. İndi Naxçıvanın ən ucqar dağ kəndlərində qərinələrlə yaşı olan, mənasını, dəyərini itirməyən, zamanın sərt sınaqlarından keçərək milli xüsusiyyətlərimizi yaşadan elə toy adətlərimiz var ki, onlar bu gün də sevilə-sevilə icra olunur, qorunub yaşadılır.*

# Elimizin toy kimi bir adəti var

Qədimdə ucqar kəndlərdə Günəş qarşı dağın sinəsinə səmt eyləyəndə toy evinin həyətində ucalan "Attandırma" havası kəndi başına götürərdi. Aydan arı nənələr, sudan duru babalar bəylə gəlinin qohumlarına, qonum-qonşuya toy babasının icazəsi ilə xoşgəldin edər, gənclərə xeyir-dua verərdilər. Bütün məclis əhli isə bu aqilləri dinləyər, onlardan ədəb-ərkan qaydalarını öyrənərdilər. Sonra toy babası meydana girib o baş, bu başa var-gəl edəndən sonra deyərdi: "Ay camaat, toy ülfət kəməndidi, ismət çələngidi, qeyrət nişanəsidi. Toy ailənin, ata-ananın şirin arzusudu, saf diləyidi. Toy bu gənclərin birgə həyat yolunun başlanğıcıdır". Sonra isə xüsusi bir avazla musiqiçilərdən birinə üz tutub deyərdilər: – bir ağsaqqal havası – "Heyvagülü" çal. Və elə o "Heyvagülü" havasıynan da mağardakı ağsaqqallar, ağbirçəklər ağır-əzizliklə oynamağa dəvət olunardılar. Onlar da xanımlıq ömrünü yaşayan, çöhrəsi nur çeşməli ağbirçəkləri bir-bir ortaya gətirərdilər. Beləcə, bir evin həyətində qurulmuş toy mağarında ədəb-ərkan məclisi başlayardı. Bu mağarda ayağı yer tutandan əli çəlik tutana kimi hər kəs öz yerində oturar, öz havası çalınanda oynardı. Həmin toylarda iki könülün barışı, iki taleyin bir yuvada qərar tutması, arzunun kama yetməsi, hicranın vüsala çatması elə bil ki dağlara, daşlara səs salardı. El sənətkarları bəhsə girərdilər. Çalçağır könülləri şad eyləyərdi. Qayğısız anlar yaşanardı. Milli yeməklərimizin bəzədiyi süfrə arxasında deyə-gülə, ürəkdolusu sevinclə, ədəb-ərkanla yeyilən yemək ağızları dada gətirərdi. Qızgəlinlərin ocaq başında təmənnasız zəhmətilə hazırlanan toy xörəklərinin qoxusu kəndi başına götürərdi. Xəstəyə, yaşlılara toy evindən yemək göndərilərdi. Hər kəs toy sahibinə alqış deyər, gənclərə xeyir-dua verərdi. Beləcə, bir ailə həyatının təməli könülxoşluğu, mehribançılıqla qoyulardı.

Həmin toylarda ağız şirinliyi ilə gənclərə verilən xeyir-dua, öyüdnəsihət sanki qurulan ailələrə xoşbəxtlik, uzunömürlülük möhürü vurardı. Ailə quranlar da bir-birlərinə, sözün həqiqi mənasında, ömür-gün yoldaşı olardılar.

Ümumiyyətlə, toylarımız özünəməxsus milli, bədii ornamentlərlə – nəğmələr, mahnılar, halaylar, yallılar, o cümlədən ayin, mərasim və etiqadlarla zəngindir. Qədim toylarımızda, adətən, saza, zurnaqavala, nağaraya, balabana xüsusi yer verilmişdir. Toyun zinəti qara zurnanın zil səsi ailə quran cavanların qulağında bir ömür boyu səadət, etibar və əmin-amanlıq rəmzi kimi qalırdı. Qədim el havaları – "Heyvagülü", "Uzundərə", "Tərəkəmə" kimi unudulmayan,



yaddan çıxmayan milli musiqi nümunələri toy mağarlarında əkssəda verəndə damarlarında qanı coşan gənclər qurşaq tutar, yallı gedərdilər.

Qədimdə toylarımızda daha çox milli geyimlərdən istifadə olunar, gəlinin beli al qırmızı rəngdə kələğayı ilə bağlanar və inanclara görə, gəlin üçün o kələğayı müqəddəs bir toy hədiyyəsi kimi uzun illər öz evində qorunub saxlanardı. Toy gününə kimi olan mərhələdə bir çox ayinlər – qızbəyənmə, xəbərgöndərmə, kiçik elçilik, elçilik, bəlgə, böyük nişan, xonçaqaytarma, danışığagəlmə kimi adətlər icra olunardı. Toylarda ən çox çörəkbişdi, xınayaxdı, kəbinkəsdi mərasimləri maraq doğurardı. Toy günündən bir neçə gün qabaq qohum-qonşuda olan qız-gəlinlər qız və ya oğlan evinə çörəkbişdiyə gələrdilər. Xəmir yoğrular, lavaş bişirilər, ilk bişən çörək isə oğul və ya qız anasına verilərdi. Paltarbiçdi də toydan qabaq icra olunan adət idi. Qız evində keçirilən bu mərasimdə gəlinin adına alınmış bütün hədiyyələr oraya yığılmış qız-gəlinlərə göstərilərdi.

Toy axşamı bəyin ata-anasından, qohum-qardaşından xələt istəyən müğənni elə xalqın yaratdığı inciləri – deyişmələri yada salardı. Beləcə, xalq yaradıcılığı nümunələri də toyların bəzəyi olardı. Toyun səhəri günü günorta saatlarında "Vağzalı"nın sədaları altında gəlin ata evindən çıxardı və çal-çağırla oğlan evinə gətirərdilər. Bundan sonra da bir çox mərasimlər – üzəçıxdı, gəlingördü, ayaqaçdı, qonaqçağırma kimi mərasimlər icra olunardı.

Bu gün həmin toy adətlərini yada salanda düşünürəm ki, o toylarımız xalq yaradıcılığının əvəzsiz sənət abidəsidir. Əlbəttə ki, o toylarımız mənəvi gözəllik, təkrarsız saflıq, səadət çələngi idi. O toylarla təməli qoyulan ailələrimiz böyük sərvət, kiçik bir dövlət idi. Bu gün də kəndlərimizdə belə toylar öz səssədası ilə dağa-daşa səs salır.

Unutmamalıyıq ki, xalqımızın milli toy adətləri həm də bir çox milli dəyərlərimizi özündə yaşadır. Toylarımız zurna-balabanın sədasında milli musiqimizi, yallı ritmində milli rəqslərimizi, kələğayı ədəbində milli geyimlərimizi, aşıqların avazında folklorumuzu, söz sənətimizi, nənə və babaların xeyir-duasında qədim adət-ənənələrimizi, güştü tutan gənclərin nərəsində xalqımızın qəhrəmanlığını, hünərini, milli mətbəximizi özündə cəmləşdirən milli kimliyimizdir.

Bir də unutmamalıyıq ki, toylar vasitəsilə kiçik dövlət adlandırdığımız ailənin təməli qoyulursa, deməli, bu adətin icrasında böyük məsuliyyət hissi dayanmalıdır. Kimliyindən asılı olmayaraq, milli dəyərlərimizdən danışarkən ağıla ilk gələn ailə dəyərləri olur. Ailə-məişət qanunlarımız, ailə dəyərlərimiz isə arına-arına, cilalana-cilalana formalaşıb. Bu qanunların təməlində fədakarlıq durub. Buna görə də hər kəs özü nümunə olmalıdır. Bugünkü toylarımızda atalar, analar, bacılar, qardaşlar bu nümunəni göstərməyə çalışsalar, məclislərimiz əndazəsindən çıxmaz.

*Gənclərə zurna-balabanlı, sazlı-sözlü toylar arzusuyla,*

**Şəhla NƏBİYEVA**

## Milli sərvət sahiblik sevir

### *və ya toylarımız qara zurnasız olmasın*

Mənimlə çoxları razılaşar ki, Naxçıvan toylarını qara zurnasız təsəvvür etmək qeyri-mümkündür. Ancaq etiraf etmək lazımdır ki, son illərdə şadlıq saraylarında təsadüfən zurna səsinə rast gələrsən. Düzdür, kənd toylarında, xüsusilə də Şərur və Şahbuz rayonlarında qara zurnaya daha çox üstünlük verirlər. Çünki elə Naxçıvanın emblemi sayılan yallılarımızın əksəriyyəti zurna ilə müşayiət olunanda daha xoş təsir bağışlayır. Belə demək mümkündürsə, yallılarımızda rəqqasların tamaşaçıya çatdırmaq istədiyi emosiyanı qara zurna ilə daha canlı ifa etmək mümkündür.



Sevindirici haldır ki, bu gün muxtar respublikamızda bu sənəti yaşadanlar az deyil. Onlardan biri Şərur rayonundan olan Ələsgər Mirzəyevdir. O, təkcə rayonda deyil, ölkəmizdə də tanınır. Şərur rayonunun Dərəkəndində anadan olan Ələsgər heç bir musiqi təhsili almayıb. Ancaq nəfəsli musiqi alətlərini çox böyük sənətkarlıqla ifa edir. Onun çalğısında türkün qədimliyi, mübarizliyi, döyüşkənliyi görünür, eşidilir, duyulur. Bu çalğıdan ulu babalarımızın səsi ucalır.

Budur, Ələsgər dayının evindəyəm. Onunla söhbətə sənətə gəlişindən başladıq:

– Dünyaya göz açandan eşitdiyim bir səs var idi – zurna səsi. Atam İsa da bu sənətlə məşğul olub. Bir gün atamdan xahiş elədim ki, mənə də zurnada ifa etməyi öyrətsin. O dedi ki, hələ sənin üçün tezdir. Lakin mən əl çəkmədim. Nəhayət, atam mənimlə razılaşdı və mənim ifamı eşidəndə heyrətləndi. O gündən məni də öyrətməyə başladı. 10 yaşım var idi. Bir gün atam Bakı şəhərinə getmişdi. Qonşuluqda toy var idi. Atamın zurnasını götürüb mən də toya getdim. Bu toyda ifamı bəyəndilər. Elə həmin toydan indiyə kimi çox toylarda iştirak edirəm. Bolqarıstan, Ərəbistan və digər xarici dövlətlərdə çıxışlarım olub. İndi də xarici dövlətlərə dəvət alıram. Türkiyə Respublikasının müxtəlif şəhərlərində toylarda iştirak edirəm.

Və əlavə edir:

– Toyu zurnasız təsəvvür etmirəm. Bu qədim musiqi alətini unutmağa heç birimizin haqqı yoxdur. Bir zamanlar bir-birindən gözəl, ruhumuzu qidalandıran xalq mahnılarını əvəzləyən, bəsit musiqisi və mənasız sözləri ilə təqdim olunan bəzi "mahnılar", təəssüflər olsun ki, əksər şadlıq evlərinin repertuarında əsas yerləri tutur. Bəs hanı bizim "Uzundərə", "İnnabı", "Heyvagülü", "Xançobanı", "Qaytağı" kimi milli musiqilərimiz, damarımızda qanımızı coşduran yallılarımız? İştirak etdiyim toylarda görmüşəm ki, zurna səsi eşidiləndə toy sanki qaynayır. Ona görə də bu sənət yaşadılmalıdır.

Ələsgər Mirzəyevin iki oğlu da bu yolu davam etdirir. Böyük oğlu Vüsal isə artıq, demək olar ki, rayonda tanınmış zurna ifaçıları sırasına daxil olub.

*Milli sərvət sahiblik sevir. Laqeydlik, unutqanlıq dəyərlərimizin əldən getməsinə səbəb ola bilər. Gəlin, biz öz milli sərvətlərimizin keşiyində dayanaq, onu qoruyaq və gələcək nəsillərə çatdıraq. Bu, hər birimizin vətəndaşlıq borcudur.*

**Sara ƏZİMOVA**

*Qədim xalq sənəti nümunələri – misgərlik, dulusçuluq, qalayçılıq, xalçaçılıq, ipəkçilik, dəmirçilik kimi sənət sahələri Naxçıvanda geniş yayılıb və yüksək inkişaf səviyyəsinə çatıb. Bunlar arasında qədim məişət mədəniyyətinə aid olan keçəçilik xalqımızın mədəni tarixində xüsusi yer tutur. Bu qədim sənət növü hörmə, tikmə, toxumadan fərqli olaraq, vaxtilə basma üsulu ilə ixtisaslaşmış ustalar tərəfindən yaşadılıb.*

## *Keçəçilik* sənəti xalqımızın məişət mədəniyyəti tarixində xüsusi yer tutur

Keçəçilik sənətinin təşəkkül tapmasında heyvandarlığın rolunu xüsusi qeyd etmək lazımdır. Araşdırmalar göstərir ki, qədim dövrlərdə soyuq havalarda insanlar isti olsun deyə, adi yun və ya yunlu dəridən istifadə ediblər. Bir müddət sonra yunun bir-birinə yapışdığını görüb, keçə əldə etməyi öyrəniblər.

Keçədən məişətdə istifadə olunması haqqında "Kitabi-Dədə Qorqud" dastanında da məlumat var. Dastanda deyilir: "Kimin ki oğlu-qızı yoxdur, qara otağa qondurun, qara keçə altına döşəyin, qara qoyun yəxnisindən önünə gətirin".

### *Naxçıvanda keçəçiliyin qədim tarixi var*

Naxçıvanda da sənətkarlığın bu növü geniş yayılıb. Muxtar respublika ərazisindən toplanılan etnoqrafik çöl materiallarına görə, bəzi kəndlərdə keçəçi məhəlləsi mövcud olub.

AMEA-nın müxbir üzvü Qadir Qədirzadənin sözlərinə görə, keçə bu gün məişətimizdə istifadə olunan və min illərlə tarixi olan xalçanın ilki sayılır. Keçə ilə bağlı Naxçıvanda xüsusi adət və inanclar vardır. Xalq arasındakı inanca görə, qalın isladılmış keçələr, hətta gülləni belə keçirməzmiş. Keçə bir tərəfdən məişət əşyası, digər tərəfdən isə döyüşdə istifadə olunan müdafiə vasitəsi idi. Ondan papaqlar, qolçaqlar, "kəpənək" deyilən geyim forması hazırlanırdı. İnanca görə, keçə papaqlar qılınc zərbəsinə qarşı davamlı olub.

Elat dünyasında, o cümlədən Naxçıvanda yarımköçərilikə bağlı təsərrüfatda keçənin xüsusi yerə sahib olduğunu bildirən AMEA-nın müxbir üzvü qeyd etdi ki, vaxtilə keçəçilik muxtar respublikanın bütün ərazisində əsas sənət sahələrindən biri olub. Əsasən də yarımköçəri həyat tərzinin üstünlük təşkil etdiyi Şərur rayonunda geniş yayılıb. Bu gün Naxçıvan Dövlət



Xalça Muzeyində Kəngərli rayonunun Qıvraq qəsəbəsinə aid qədim keçə nadir nümunə kimi qorunub saxlanılır.

Vaxtilə Naxçıvan keçələrinin geniş istifadə olunmasının əsas səbəbi bu idi ki, o, alaçığı və ya palçıqla tikilmiş evi qışda isti, yayda isə sərin saxlayırdı. Qədim dövrlərdə alaçığın üstünü örtmək üçün bir neçə keçəni bir-birinə tikirdilər. Alaçığın baş hissəsini tutmaq üçün baş qəlibdən, yanlarını örtmək üçün yan qəlibdən, qabağını örtmək üçün isə qənşər qəlibdən istifadə edirdilər. Bu da alaçığın ölçüsündən asılı olaraq hazırlanırdı. Xüsusən yay aylarında isladıldıqdan sonra Günəş şüaları altında olan keçə alaçığı daha da sərinlədirdi. İlan və zəhərli həşəratlar keçə döşənilən yerə yaxınlaşmırdılar. Ona görə də məişətdə keçədən döşəmə kimi də geniş istifadə edilib.

Keçə həm də təbabətdə istifadə olunurdu. Qədim dövrlərdə keçə qaynadılaraq irinli yaraların üstünə qoyulurdu. Qara keçə ağır dizenteriya hallarında istifadə olunub. Soyuqdəyməsi olan adamlar isə qara keçələrə bükülür və bir müddət elə qalırdılar. Maraqlıdır ki, bundan sonra həmin insanlar çox qısa zamanda sağalırdılar.

### *Keçə necə hazırlanırdı?*

Azərbaycanın bütün bölgələrində olduğu kimi, Naxçıvanda da keçəni salana "keçəçi", "həllac", həm də "atıcı" deyərlər. Keçə salmaq üçün güzəm yunundan, yəni quzu və ya payız yunundan istifadə edilir. Keçəçi ustaların söylədiyinə görə, yaz yunundan (saçaqlı) keçə salmaq olmaz. Ona görə ki, saçaqlı yun uzun olduğu üçün bitmir, yəni bir-birinə yapışmır. 7-8 qoyun yunundan, yəni 12-15 kiloqram yundan bir keçə, qəlib hazırlanır. Keçə hazırlanarkən həllaclar çalışırdılar ki, xüsusən qara yundan istifadə etsinlər. Çünki qara keçə hava keçirmir.

Bununla bağlı Naxçıvandan toplanan etnoqrafik materiallardan məlum olur ki, keçənin hazırlanma prosesi aşağıdakı qaydada icra olunurdu: yunu diddikdən sonra onu ağ parçanın üstünə sərirdilər. Bundan sonra yun sərilmiş ağ parçanı hamarlanmış, yonulmuş, düz silindrik ağaca büküb hər iki tərəfdən bağlayırdılar. Bu ağacın adına "ox" deyirdilər. 5-6 nəfərin iştirakı ilə onu ayaqlayır, sonra ayaqları ilə vura-vura fırladırdılar ki, yetişsin, yəni hazırlansın. Salınmış yunun üzərinə hərdənbir ılıq su və ya yumurta sarısı səpirdilər ki, yun bir-birinə tez yapışsın. Yun bitişib tam keçə halına gələnə qədər bu iş davam etdirilirdi.

### *Keçəçilik sənətini gəlirli sahəyə çevirmək mümkündür*

Turizmin inkişaf etdiyi bir dövrdə keçədən düzəldilmiş bəzəkli məişət əşyaları, baş geyimləri, gödəkçələr turistlərin diqqətini daha çox cəlb etdiyindən keçəçiliyi gəlirli sahəyə çevirmək mümkündür. Çünki Naxçıvanda heyvandarlığın inkişafı keçəçilik sənəti üçün xammal bazası yaradır.

**Rauf ƏLİYEV**

*Keçmişinə qayıdış, əcdadını tanımaq hissləri nə qədər uludur, deyə bilmərəm, amma hər bir insanın lap körpəlikdən dinlədiyi bütün həzin laylalardan, xısın-xısın qulaq verdiyi əhvalatlardan daha maraqla duymaq istədiyi bir hekayə vardır. Bu, ağlı kəsəndən, dünyanı düşünəndən sonra onun beynində baş qaldıran, – **"Bəs mənim babam, babamın babası kim olub?"** – sualına cavab axtarmasıdır.*

# Baba və nəvənin söhbəti

*(oçerk)*

Balaca toppuş əlləri ilə babasının ətəyindən sıx-sımarıc yapışıb, bağçadakı otların arası ilə dovşan kimi tullanan balaca Mətinin babasından "Baba, bəs sənin baban kim olub?" – deyə soruşması kimi.

– Düzdür, o dövrün kişiləri qollu-biləkli olublar, – deyə baba nəvəsinə doğru əyilib yanağına yağlı bir öpüş də qondurdu. Bax o yolumuzun üstündə bulaqdakı yekə təhnə daşını deyilənlərə görə, babamgil, qardaşları ilə öküz arabasında hardansa gətiriblər. İndi texnika əsridi, nəhəng maşınlar bir saatda bir dağı yarırlar. İstəyirəm sən də onlar kimi olasan. Amma dünən sənin əlində o dondurmadı, nədi, yenə gördüm, – deyə baba nəvəsini məzəmmət elədi. Belə şeylər ziyandır, əziz nəvəm. Bax həyətdə gilas, gilənarımız yetişib, ürəyin bir şey istəyəndə nənəndən ərik, tut qurusu al, onlardan ye! Bizim vaxtımızda dondurma-filan olmazdı, məhləmizdəki o bulağın sərin suyu min dənə dondurmaya dəyər, – deyərək baba əli ilə alma ağaclarının qurumuş budaqlarını qoparmağa çalışırdı.

Baba fikrə dalmışdı, xəyalları onu uzaqlara, lap çox uzaqlara aparmışdı deyəsən. Yanında çubuqdan at düzəldib, öz uşaq dünyasına qapılmış nəvəsi də sanki artıq qane olmuşdu babasının bu cavabına. Amma baba dərin fikrə getdi. Yaddaşının dərinliyindən o qədər acılı-şirinli xatirə canlandırdı ki, onları bir dəqiqədə yaza bilən olsaydı kaş ki! Doğrudan da, bəs mənim babam kim olub, o bizə nə miras qoyub, var-dövləti nə idi? – deyə baba öz-özünə düşünürdü. Axı o dövr cah-cəlal dövrü olmayıb. O dövrün kişiləri at çapar, qılınc oynadar, toylarda güştü tutar, halay çəkib yallı gedərdilər. Elin harayına çatan, beş nəfərlə iyirmi beş nəfər yağı düşməni bir gecədə qırıb, həmin yerin adını da indiyə qədər yaşatdıran babalarımız olub axı.

Baba üzünü nəvəsinə tutub astadan söhbətinə davam etdi: Bizim babalarımız qara yazdan, çöldə qaralıb yanmış əlləri ilə daşdan çörək qazanardı. Qışda da ki, kürsünü qurub, başının altına yığdığı azuqəsini yeyərdi. Bəs indi? Düzdür, zəmanə çox dəyişilib, indinin ən kasıbı o vaxtın bəy-xanı kimi özünə güzəran qurub. Amma di gəl ki, kəndimizin bağ-bərəkətinə, bal-qaymağına, qovurma dolu qazanına qane olmayıb, şəhərdə, doqquzuncu mərtəbədə oturub yarpızın, bənövşənin, nərgizin həsrətini çəkən, sonra da mənzum "şeirlər" qoşanlar da var. Öz işləridir, neynək, bəlkə onlar, heç uşaqlıqda şehli çəməndə qaçışmayıb, yolda-yamacda qarı buza çevirənəcən xizək sürməyiblər. Bəlalərinə bizdə "dizi çöldəbayırda bərkiməyib", – deyərlər. Onların yanından yel ötəndə azarlayıb, həmin saat həkimə qaçırlar. Bir çaynik kəklikotu çayındansa bir torba acı dərmanı içərlər. Balam, adam hər sənətin sahibi olar. Amma daha sən dünən bu kənddən getmisən. Bu, bizə yaraşmaz axı! Eləsi var ki, bir vaxtlar kənddə quzu otaranda hər bulaqdan su içməyi bəyənməzdi. Amma indi uşaqların yolu şəhərə düşəndə bizə kənddən su gətirin, – deyirlər. Əgər Gurbulağın suyundan istəyirsənsə, onda gərək, bir yaz günü, baldırğan təzə özəkləyəndə özün durub gələsən bu dağların ətəyinə. Nə qədər çox işingücün olsa da.

Baba sanki öz-özünə danışırdı. Nəvəsinin də çubuq atını çoxdan qırıb sındırdığını indi gördü. Mənim babam çox qoçaq kişi olub, – dedi. Qonaq-qaralı, gəlib-gedənli olub qapısı. Bizi də çox sevərdi, qucağına alıb öpərdi, mənim yaxşı yadıma gəlir. Amma biz çətin dövrlər keçirdik, çox çətin. Bəzən elə çətinlik görmüşəm ki, bir gündə sanki bir neçə il qocalmışam. Gör sənə nə deyəcəm, biləsən, – deyə baba gözlərini ona zilləmiş nəvəsinə doğru əyildi. Bax, kənddəki o təzə mağazanı görürsən? Bizim Fərhadın dükanını deyirəm. Hər gün səhər məktəbə gedəndə bir bax, dükan açılan kimi şəhərdən iki böyük qutu təzə çörək gətirirlər. Bilirsən, bu nə deməkdir? Çörək bolluğu! Bolluq içində yaşamağa nə var ki? Min şükür! *"Allah təkcə çörəyi əlimizdən almasın!"* – mənim babam həmişə belə deyərdi. İnsanlarımız heç zaman zəhmətdən qaçmayıb, əkib-becəriblər. Ona görə də heç



o vaxtlar da çörək sarıdan korluq çəkməmişik. Ancaq o vaxtlar hər şey çox çətin idi. İndi əkib-becərməyə nə var ki? Şükür Allaha, torpaq özümüzün, maşın özümüzün. O vaxtlar babalarımız əkini suvarmaq üçün daş-kəsəyi yarıb minbir əziyyətlə arx çəkirdi. İndi borularla su çəkilib. Necə deyərlər, su lap ayağının dibində.

Ay oğul, çörək gətirən maşını dedim, yadıma düşdü. O maşın gündə bir neçə dəfə kəndimizə isti çörək gətirir. İndi yollara baxıram, keçmiş günlər lap gözümün önündə canlanır. Heç yadımdan çıxmır, bir iş dalınca şəhərə getmək üçün bir neçə gün əvvəldən hazırlaşırdıq ki, uzaq yol gedəcəyik. Çünki indiki kimi belə yollar yox idi. Bu gün, maşallah, kəndimizin yolu lap şəhər yoluna oxşayır. Gediş-gəliş xeyli asanlaşıb. Şəhərə də maşınla rahat gedirik.

O gün kəndə fikir verirəm. Nə qədər gözəl binalar tikilib. Hələ sizin oxuduğunuz məktəbi demirəm. Məktəb binası bizim dövrümüzdəki ən yaxşı universitetin binasından da yaxşıdı. Nənənin sandığında gizlətdiyi albomda atanın oxuduğu universitetin şəkilləri var. İnanmırsan, bir gün aç, bax.

Baba nəfəsini dərib dərin bir fikrə daldı. Gözü uzaqlarda gəzirdi. Sanki kəndi başdan-başa əhatə edən uca dağların ətəyində nəsə axtarırdı. Bu dağlar bütün dövrlərə şahidlik edib axı. Keçmiş günlərin xatirəsi, babalarımızın gün-güzəranı bir-bir gözünün önünə gəldi. Kəndin on illər bundan qabaqkı siması, insanların gün-güzəranı və bugünkü müasir binalar, insanların firavan həyatı. Düzünü deyim, heç o vaxt oxumaq da belə asan olmayıb, – xəyallardan ayrılmadan sözünə davam etdi nurani baba. Nəvəsinin ipək saçını sığallayaraq dedi: O vaxtlar oxumaq üçün kitab nədi, qələm-dəftəri də zorla tapardıq. O gün bayramda məktəbinizin direktoru zəng vurmuşdu. Kefimi soruşdu. Dedi yeni kitabları məktəbimizə daşıyırıq. Ay oğul, bunlar nə kitabdı belə, – deyə soruşanda, dedi ki, yeni pulsuz dərsliklərdi, bir də ədəbiyyat kitabları. Dövlətimiz göndərib ki, nəvələriniz yaxşı təhsil alıb, savadlı, bilikli, vətənpərvər ruhda böyüsünlər. Deyir kitabxanada 10 mindən çox kitab var. Bizim vaxtımızda heç rayonumuzun mərkəzi kitabxanasında min kitab yox idi. İndi məktəbdə yaxşı təhsil almaq üçün hər şərait vardır. Çalışın, bala, oxuyun, yaxşı təhsil alın. Sən də dərslərini yaxşı oxu, savadlı həkim ol. Babanın çoxdankı arzusudu bu. Əvvəllər xəstələnəndə çox əziyyətlər çəkərdik. Kənddə tibb ocağı yox idi. Rayon mərkəzinə getməyin özü də bir çətinlik idi. Kəndin mərkəzindəki həkim ambulatoriyasını qurub-yaradanlara eşq olsun. Orada hər cür dava-dərman var. İndi həkimlər də qayğımıza yaxşı qalırlar. O gün mənə də baş çəkib müayinə etdilər, dərmanlarımı da verdilər. Sağ olsunlar, vaxtaşırı da gəlib evdə hal-xətrimizi soruşur, səhhətimizlə maraqlanırlar.

Söhbətin bu yerində nəvənin əlləri babasının ətəyinə kilidləndi: bir yurd sevgisi, gücü, qüvvəsi ilə. Lakin balaca Mətinin səksənyaşlı qocanın qırışlarında gizlənmiş gözlərindən süzülmüş iki damla yaşdan xəbəri olmadı…

– "Kaş bizim babalarımız da bu günləri görə biləydilər", – deyən baba əsasına söykənərək yenidən xəyallara daldı.

✍ **Əli CABBAROV**

## Görkəmli sərkərdənin yubileyi qeyd olunub



Azərbaycan Respublikası Prezidentinin "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin keçirilməsi haqqında" 2015-ci il 2 aprel tarixli və "Cəmşid Naxçıvanskinin 120 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 9 aprel tarixli sərəncamları görkəmli hərb xadiminin həyat və fəaliyyətinin öyrənilməsində növbəti addımdır.

Tədbirlər planına əsasən, muxtar respublikamızda görkəmli sərkərdənin yubileyi müxtəlif tədbirlərlə qeyd edilir. Belə tədbirlərdən biri də Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən keçirilib. Belə ki, Naxçıvan şəhərində fəaliyyət göstərən muzeylərin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyində təşkil olunmuş yubiley tədbirində iştirak ediblər.

Muzeyin direktoru Zeynəb Heydərova eksponatlar haqqında məlumat verərək bildirib ki, bu muzey Kəngərli xanları nəslinin nümayəndəsi, Azərbaycan Atıcı Diviziyasının komandiri, general Cəmşid Naxçıvanskinin anadan olmasının 85 illiyində, 1981-ci ildə onun yaşadığı evdə yaradılıb. Muzeydə C.Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən 6 minə yaxın eksponat qorunub saxlanılır. Onlardan minə yaxını ekspozisiya zalında nümayiş etdirilir.

Muzeyin baş elmi işçisi, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Gülnaz Hüseynova görkəmli sərkərdənin həyatı barədə danışaraq bildirib ki, Cəmşid xan Kəngərli tayfasının əksəriyyətinin hərbçi, xüsusilə süvari döyüşçü olması, həmçinin atası Cəfərqulu xanın və əmilərinin tanınmış hərbçi sərkərdələr kimi şöhrət qazanmaları onun bu sahəyə marağını artırıb.

1914-cü ilin martında Cəmşid xan Tiflis Kadet Korpusunda yeddillik təhsilini başa vurub. 1914-cü il avqustun 1-də Yelizavetqrad Süvari Hərbi Məktəbində təhsilini davam etdirən, Cəmşid xan 1915-ci ilin mart ayında tatar (azərbaycanlı) süvari polkunda həqiqi hərbi xidmətə başlayıb. C.Naxçıvanski 1921-ci ildə Azərbaycanın ilk milli atıcı diviziyasına komandir təyin edilib.

Qeyd olunub ki, görkəmli sərkərdə 1923-cü ildə Moskvadakı Fəhlə-Kəndli Qızıl Ordusunun Ali Hərbi Akademiyasına birillik kursa oxumağa göndərilib. 1931-ci ildən isə M.V.Frunze adına Hərbi Akademiyanın xüsusi qrupunda təhsilini davam etdirib. Sonra isə həmin akademiyada yüksək vəzifədə çalışıb. Lakin ötən əsrin 30-cu illərinin repressiya burulğanı Cəmşid Naxçıvanskidən də yan keçməyib. 1938-ci ildə antisovet millətçisi, sovet hökumətinin düşməni kimi qondarma ittihamlarla həbs edilərək güllələnib.

Tədbirdə çıxış edənlər vurğulayıblar ki, görkəmli hərb xadiminin xidmətlərinə əsl qiymət ümummilli liderimiz Heydər Əliyev tərəfindən verilib. 1971-ci ildə Moskvanın əsassız cəhdlərinə baxmayaraq, Bakı şəhərində respublika hərbi təyinatlı orta internat məktəbi yaradılıb və Cəmşid Naxçıvanskinin adı bu məktəbdə əbədiləşdirilib.

Sonda tədbir iştirakçıları sərkərdənin ev-muzeyindəki eksponatlarla tanış olublar.

✍ **Rauf ƏLİYEV**

## İdmançımız Avropa ikincisi oldu

Ukraynanın Odessa şəhərində universal döyüş növü üzrə Avropa çempionatı keçirilib. Qitə birinciliyində Azərbaycan Universal Döyüş Federasiyasının idmançıları da iştirak ediblər. Sevindirici haldır ki, Naxçıvan idmançısı Xəyal Abdullayev də millimizin heyətində bu birincilikdə çıxış edib.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi 80 kiloqram çəki dərəcəsində mübarizə aparıb. İdmançımız Moldova, Rumıniya və Türkiyə idmançılarını məğlub edərək finala yüksəlib. Həlledici qarşılaşmada Xəyal Abdullayev ukraynalı həmkarı Viktor Qanko ilə üz-üzə gəlib. Bu qarşılaşmanın nəticəsinə görə o, qitə birinciliyini ikinci pillədə başa vurub.

İdmançımız təşkilatçılar tərəfindən diplom və medala layiq görülüb.

Qeyd edək ki, Xəyal Abdullayev oktyabr ayında Azərbaycan Universal Döyüş yığmasının heyətində dünya çempionatında iştirak edəcəkdir.

✍ **Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqənin vaxtı uzadılmışdır

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq icra məmuru vəzifələrinə müsabiqə elan etmişdir. Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə çatdırılır ki, sənədlərin qəbulu 2015-ci il sentyabr ayının 10-dək uzadılmışdır. İcra məmuru vəzifələrinə ali hüquq təhsilli, 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. İcra məmuru vəzifələrinə işə qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər 2 ədəd ağ fonda, 3x4 sm ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət formasını doldurmaq üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edə bilərlər.

***Əlavə məlumatlar almaq üçün 545-00-69; 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.***

ŞƏRQ qapısı

Baş redaktor əvəzi:
MUXTAR MƏMMƏDOV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 603